***AÇIQ DƏRS PROBLEMİ***
***ПРОБЛЕМА ОТКРЫТОГО УРОКА***
***THE PROBLEM OF OPEN LESSON***

*UOT 37.0*

***Təranə Qeyis qızı Abdullayeva***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti,*
*biologiya üzrə fəlsəfə doktoru*
*https://orcid.org/ 0000-0002-9151-8950*
*https://doi.org/10.69682/arti.2024.91(6).150-153*

## ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ AÇIQ DƏRSLƏRİN TƏŞKİLİ

***Тарана Гейс гызы Абдуллаева***
*доцент*
*Азербайджанского Государственного Педагогического Университета,*
*доктор философии по биологии*

## ОРГАНИЗАЦИЯ ОТКРЫТЫХ УРОКОВ В ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛАХ

***Tarana Qeyis Abdullayeva***
*associate professor*
*of Azerbaijan State Pedagogical University,*
*doctor of philosophy in biology,*

## ORGANIZATION OF OPEN LESSONS IN SECONDARY SCHOOLS

**Xülasə.** Məqalədə müstəqil Azərbaycanın təhsil sistemindəki yeniliklər araşdırılır, ümumtəhsil məktəblərində açıq dərslərin təşkili xüsusiyyətləri izah olunur. Müəyyən vaxtlarda təcrübəli, ustad, lider müəllimlər tərəfindən açıq dərslərin keçirilməsinin üstünlükləri göstərilir. Qabaqcıl təcrübənin öyrənilib yayılmasının təhsilin keyfiyyətinə müsbət təsiri aydınlaşdırılır. Təcrübəli müəllimlərin hər bir dərsinin həmkarları üçün açıq olması vurğulanır.
**Açar sözlər:** *açıq dərs, ustad müəllim, motivasiya, fəal dərs, keyfiyyət, inteqrasiya, tədqiqat, dialoq*

**Аннотация.** В статье рассматриваются инновации в системе образования независимого Азербайджана, объясняются особенности организации открытых уроков в общеобразовательных школах. Показаны преимущества проведения в определенное время открытых уроков опытными, ведущими учителями. Выяснено положительное влияние изучения и распространения передового опыта на качество образования. Отмечается, что каждый урок опытных учителей открыт для своих коллег.
***Ключевые слова:*** *открытый урок, опытный учитель, мотивация, активный урок, качество, интеграция, исследование, диалог*

**Abstract.** Innovations in the education system of independent Azerbaijan are discussed in the article, and the peculiarities of the organization of open classes in secondary schools are explained. The advantages of conducting open classes by experienced, masters, leading teachers at a certain time are shown. The positive influence of studying and spreading advanced experience on the quality of education has been revealed. It is noted that every lesson of experienced teachers is open to their colleagues.
***Keywords***: *open lesson, master teacher, motivation, active lesson, quality, integration, research, dialogue.*

Müstəqil Azərbaycanın təhsil sisteminin beynəlxalq sistemə inteqrasiyası sürətlə inkişaf edir. Yeni əsrdə cəmiyyətin inkişafı üçün yaradıcı, müstəqil düşünən və inkişaf edən şəxsiyyət formalaşdırılır. Azərbaycan təhsili qarşıya qoyulmuş yüksək mədəniyyətli, mütərəqqi dünya-

görüşlü, insan hüquqları və azadlıqlarına hörmət edən müstəqil və yaradıcı düşünmə qabiliyyətinə malik, vətənpərvər şəxsiyyət yetişdirmək probleminin həllinə ciddi yanaşır. Bunun üçün müəllimlər tədrisin keyfiyyətinə diqqəti artırır, "reproduktor" rolundan imtina edərək biliklərin əldə edilməsində bələdçi rolunu seçirlər. Təlimin yeni texnologiyasını tətbiq edir, pedaqoji fəaliyyətində mütəmadi olaraq metodiki və professional səviyyəsini yüksəltməyə, elmi-nəzəri biliklərini artırmağa səy göstərirlər.

Müəllim tədris etdiyi fənnin mövzusu üzrə reallaşdırılacaq standartı, məqsədi tətbiq edəcək uyğun metodikanı müəyyənləşdirir. Dərsin səmərəli keçməsinə görə o əvvəlcədən: Dərsdə hansı bilik və bacarıqlar aşılanacaq? Onlar necə aşılanacaq? Hansı şəraitdə təşkil olunacaq? Təlim fəaliyyəti necə qiymətləndiriləcək? Kimi suallara cavab axtarır. Dərsdə reallaşacaq standarta uyğun təlim məqsədi üzrə iş aparılır. Belə ki:

-Dərsin mərhələləri və hər bir mərhələ üçün zaman fasiləsi, tapşırıqlar və metodlar müəyyənləşdirilir. Onun başlanğıcında mövzu, standart, təlim məqsədi, inteqrasiya, iş forması, iş üsulları, resurslar dəqiqləşdirilir. Dərsin mərhələləri aşağıdakı ardıcıllıq üzrə sistemləşdirilir [4, s. 101].

1. Motivasiya (probleminin qoyulması) mərhələsi fəal dərsin vacib komponenti olmaqla təfəkkür prosesini hərəkətə gətirir və şagirdlərin idrak fəallığına təkan verir.

2. Tədqiqatın aparılması (problemin həlli) mərhələsində tədqiqat sualını tamamlamaq üçün şagirdlərə tapşırıqlar verilir. Müəyyən bir iş formasında təqdimatlar hazırlanır.

3. İnformasiya mübadiləsi mərhələsində şagirdlər əldə etdikləri yeni informasiyaları digər iştirakçılara ötürür.

4. İnformasiyanın müzakirəsi mərhələsində şagirdlərin hazırladıqları təqdimatlar və informasiyalar müzakirə edilir. Düzgün və yanlış cavablar aydınlaşdırılır. Bu mərhələnin məqsədi yeni əldə edilmiş informasiyaları sistemləşdirmək və hazırlanan təqdimatlar arasındakı əlaqəni üzə çıxarmaqdan ibarətdir.

5. Nəticə və ümumiləşdirmə mərhələsində nəticəyə gəlmək üçün şagirdlərlə birlikdə informasiyalar ümumiləşdirilir və əldə edilmiş ideya, ilkin fərziyyələrlə müqayisə etdirilir.

6. Yaradıcı tətbiqetmə mərhələsində şagirdlərin biliyi möhkəmləndirilir. Əldə edilmiş nəticələrə əsasən praktik iş, yaradıcı tapşırıqlar, məsələ və misallar ilə şagirdlər yaradıcı fəaliyyətə cəlb olunur. Yaradıcı tətbiqetmə mərhələsinin tapşırıqlarına dərsdə vaxt çatmadıqda onlar evdə yerinə yetirilə bilər.

7. Qiymətləndirmə mərhələsində şagirdlərin təlimdəki fəaliyyətləri izlənilir, konkret meyarlar əsasında qiymətləndirilir.

Fəal (interaktiv) dərsdə şagirdlər biliyi müstəqil əldə edir, onlar təlim prosesinə fəal cəlb olunurlar, müəllim fasilitator mövqeyi nümayiş etdirir. Dərsdə yaradılmış öyrədici mühit şagirdlərin sərbəstliyini təmin edir. İnteraktiv dərs şagirdlər üçün elm aləminə edilən bir səyahətə bənzəyir. Şagirdlər belə dərslərdə tədqiqatçı rolunu oynayırlar [5, s. 48].

Azərbaycan Respublikasının "Təhsil haqqında" qanununa [5] uyğun olaraq Tədris Mərkəzi 02 dekabr 2015-ci ildə "Açıq dərslərin təşkili, keçirilməsi və qiymətləndirilməsinə dair "Qaydaları" işləmişdir.

Şagirdlərimizin təlim-tərbiyəsində və inkişafında açıq dərslərin rolu böyükdür. Belə ki, açıq dərslər müəllimlərdə və şagirdlərdə məsuliyyət duyğusunu artırır;

-Şagirdlərin sosiallığına və onların cəmiyyətə daha rahat inteqrasiyasına kömək edir;

-Yüksək təcrübəyə malik müəllimlərin təcrübəsini gənclərlə praktik olaraq bölüşməsi üçün əvəzsiz vasitədir;

-Obyektiv müzakirə edilərək iştirak edən müəllimin öz səhvlərini görməsi və aradan qaldırması üçün metodik kömək göstərir;

-Valideynlərin tədris prosesinə cəlb edilməsini təmin edir.

-Onları həm kurikulumun tələbləri, həm də şagirdlərə yanaşma qaydaları ilə tanış edir;

-Şagirdlərin əməkdaşlıq, birlikdə fəaliyyət göstərmə bacarıqlarını inkişaf etdirir;

-Müəllimi daha çox axtarmağa, öz üzərində işləməyə məcbur edir;

-Məktəb rəhbərliyini müəllimlərin dərs keçdiyi sinifdəki ümumi vəziyyət, ayrı-ayrı şagirdlər haqqında məlumatlandırır.

-"Açıq dərs" özündə bir neçə mərhələni: dərsə hazırlıq, dərs prosesi, dərsin müzakirəsi birləşdirir[6, s. 4-5].

Açıq dərsin gündəlik dərsdən bir sıra fərqləri mövcud olsa da, onlar bir-birindən köklü şəkildə fərqlənmir. Müəllim açıq dərsə hazırlaşarkən öz şagirdlərinə gələn qonaqları salamlama-

ğı, zəruri məqamlarda özlərini təqdim etməyi öyrədir. Bu baxımdan açıq dərsə verilən tələblərə diqqətlə yanaşılır, yeni tipli açıq dərslər təşkil edilir. Son illər dünyanın bir çox ölkələrində, o cümlədən İngiltərə, Avstraliya, ABŞ, Kanada, Almaniyada müəllimlərin standartları təsdiq edilib. Standartlar müəllimlərin peşəkar bilik və bacarıqları-təhsilin məzmunu və üsulları, qiymətləndirmə bacarığı, müxtəlif xarakterli, tələbat və imkanlara malik uşaqlarla iş, tədris prosesinin planlaşdırılması və s. əhatə edir. Müəllim standartları 4 səviyyəni : məzun, ixstisaslı müəllim, yüksək ixtisaslı müəllim, lider müəllimi əhatə edir. Məhz açıq dərsi lider, bəzən yüksək ixtisaslı müəllim səviyyələrə malik olanların aparması məsləhətdir. Peşəkar, təcrübəli, yenilikçi müəllimin hər dərsi açıq dərs hesab olunur.

Müəllim şagirdlərinə hansı tarixdə açıq dərsləri olacağını elan edərkən həyəcanlı olsa da bunu şagirdlərinə büruzə vermir, dərsin hazırlıq mərhələsində texniki məsələlərlə məşğul olur. Açıq dərslərin təşkili məktəb rəhbərliyi və müəllimlərin üzərinə böyük məsuliyyət qoyur. İstənilən açıq dərs müəllimlə yanaşı, həm də məktəbin özünü təqdim etməsidir. Bu təqdimatın uğurlu olması ona hazırlıq prosesində məktəb rəhbərliyi və açıq dərs aparan müəllimin birgə əməkdaşlığı sayəsində ərsəyə gəlir.

Açıq dərs müəllim tərəfindən təlim-tərbiyənin keyfiyyətcə yüksəldilməsinə, yeniliklərin tətbiq edilməsinə yönəlmiş dərs nümunəsinin təqdim edilməsidir. Açıq dərslərdə müəllim və şagirdlərlə yanaşı sinif otağında müşahidəçi şəxslərdə iştirak edir. Dərsin kecirilməsi günü, saatı, yeri, mövzusu və məqsədi, həmçinin müşahidəçi kimi iştirak edəcək şəxslərin tərkibi əvvəlcədən planlaşdırılır. Açıq dərs adi dərslərdən müşahidəçilər üçün nümunə olması ilə fərqlənir [1, s. 94].

Yüksək təlim keyfiyyəti əldə etmiş müəllim müxtəlif kurs, treninq və təlim keçmiş qabaqcıl təcrübəyə malik yenilikləri öyrənir, dərslərində tətbiq edir, tədrislə bağlı qabaqcıl təcrübəni mənimsəyir açıq dərs vermək hüququ qazanır. Uğurlu açıq dərslərin təşkil edilməsi məktəb rəhbərliyinin peşəkarlığından və səriştəsindən, təhsillə bağlı hədəfləri vaxtında görməsindən, yeniliyə və müasir dünyagörüşə malik olmasından, ölkədə və dünyada gedən təhsil proseslərinə bələdliyindən çox asılıdır. Məktəb rəhbərliyi açıq dərs verəcək müəllimi müəyyənləşdirir. Belə ki, müəllimin fəaliyyətini müəyyən müddət müşahidə edir, nəticələrini ümumiləşdirir. Əldə olunmuş materiallar rəhbərlikdə müzakirə edilir və müsbət fikir formalaşdıqdan sonra müəllimlə məsləhətləşərək onun açıq dərsini iş planına daxil edir.

Açıq dərs verməyə hazırlaşan müəllim mövzunu seçir, mövzunun sadə, müşahidəçilər üçün maraqlı olmasına diqqət edir. Şagirdlərlə sinfin, öyrədici mühitin vəziyyəti ilə tanış olur.

Məktəb rəhbərləri pedaqoji prosesə nəzarət edərkən dərsin təkmilləşdirilməsinə, onun funksiyalarının genişləndirilməsinə, imkanlarının artırılması istiqamətində tədqiqatlar aparılmasına, onun mexanizmini, strukturunu, ayrı-ayrı cəhətlərini öyrənməyə və yeniləşdirməyə diqqəti artırır. Məktəb rəhbərləri bunun üçün müəllimlərinin iş metodunu müstəqil, yaradıcı şəkildə müəyyənləşdirməsinə şərait yaradır, rəsmi metodik qaydaların əsiri olmasına yol vermir, onları zorla müəllimlərinə qəbul etdirmir. Açıq dərslərin təşkili təlim işində təcrübə mübadiləsinə kömək edən vasitə kimi ən yaxşı dərs nümunələrini yaymaq məqsədi daşıyır. Müəllimləri öz işinə tənqidi yanaşmağa sövq edir və onları başqalarının qabaqcıl təcrübəsini öyrənməyə istiqamətləndirir [2, s.135].

Açıq dərslərin səmərəsi onların düzgün təşkilindən asılıdır. Belə dərslərin mövzuları proqramın nisbətən çətin bölmələrindən seçilir ki, onun keçilməsi nümunəsində müəllimlərə müvafiq mesajlar verilsin.

Açıq dərslərin cədvəlinin dərs ilinin əvvəlində metodbirləşmə və ya fənn metod komissiyalarının təqdimatına əsasən direktor müavini tərəfindən tərtib olunur, təsdiq edilir və məktəbin elanlar lövhəsindən asılır. Onun bir surəti təhsil şöbəsinin metod mərkəzinə göndərilir ki, məktəbdəki açıq dərslərlə digər məktəblərin müəllimləri, əməkdaşları tanış olsunlar.

Müəllim nəzərdə tutulan açıq dərsin planını əvvəlcədən tərtib edir. Planda dərsin məntiqi quruluşu, didaktik prinsipləri, əsas anlayışları, o cümlədən aşılanacaq bacarıq və vərdişlərin həcmi özünün dəqiq, yığcam ifadəsini tapır. Müəllim plan əsasında dərsə ciddi hazırlaşır, dərs prosesində ən səmərəli vasitə və metodları bacarıqla tətbiq edir.

Açıq dərslərin müzakirəsi tənqid və özünütənqid ruhunda aparılır. Elmi-metodik prinsip və meyarlar ideya-siyasi, elmi-nəzəri və elmi-metodik baxımdan obyektiv təhlil olunur [4, s.151].

Açıq dərs müəllimləri daha çox düşündürən sualların cavablandırılmasına, rastlaşdıqları problemlərin həllinə kömək edir. O bir sıra sualları:

- Müəllim problemli təlimdən necə istifadə edir?
- Dərsi dialoq əsasında necə qurur?
- Müasir təlim metodlarını necə tətbiq edir?
- Əyani və texniki vasitələrdən istifadə qaydalarını necə həyata keçirir?
- Dərsdə İKT-dən istifadə imkanlarını necə reallaşdırır?
- Şagirdlərə diferensial yanaşma necədir? və s. cavablandırır.

Müzakirə zamanı bu məsələlər ətraflı aydınlaşdırılır, şagirdlərin fundamental təhsili, şəxsiyyət kimi formalaşması məsələlərinə xüsusi diqqət yetirilir, müsbət cəhətlərlə yanaşı, çatışmazlıqların hər biri qeyd olunur.

**Problemin aktuallığı.** Ümumtəhsil məktəb fənlərinin tədrisi keyfiyyətinin yüksəldilməsində açıq dərslərin təşkili və qiymətləndirilməsinin əhəmiyyəti böyükdür. Bu baxımdan məqalədə araşdırılan problem aktuallığı ilə seçilir. Məqalədə problemin həlli imkanları və yolları göstərilir.

**Problemin yeniliyi.** Ümumtəhsil məktəblərində tədris fənləri üzrə açıq dərslərin təşkili və qiymətləndirilməsi problemi ilk dəfədir ki, araşdırılır. Məqalədə ilk dəfə olaraq problemin həlli verilir.

**Problemin praktik əhəmiyyəti.** Məqalədən ali və ümumtəhsil məktəblərinin müəllimləri, tələbələr, magistrant və doktorantlar faydalan bilərlər.

**Ədəbiyyat:**

1. Əhmədov, H.H. Pedaqogika. Ali məktəb tələbələri üçün dərslik. / H.H. Əhmədov -Bakı: Təhsil NPM, -2013. -292 s
2. İsmixanov, M.A. Pedaqogikanın əsasları. Dərslik / M.A. İsmixanov -Bakı: "Bakı Universiteti" nəşriyyatı, - 2011. - 290 s
3. İbrahimov, F. Pedaqogika: Ali məktəblər üçün dərslik. 2 cilddə / F. İbrahimov, R. Hüseynzadə I cild, -Bakı: Mütərcim, -2012, - s.699
4. Hacıyeva, H. Ümumtəhsil məktəblərində səriştəli təlimin əsas istiqamətləri. Dərs vəsaiti / H. Hacıyeva, M. Zülfüqarova - Bakı: "Müəllim" nəşriyyatı , -2023. -162 s
5. Azərbaycan Respublikasının Təhsil haqqında Qanunu. / İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti Bakı şəhəri, 19 iyun 2009-cu il. -Bakı: Ozan, -2009. -18 s.
6. “Açıq dərslərin təşkili, keçirilməsi və qiymətlənlirilməsi qaydaları”. / Tədris Mərkəzinin "2" dekabr 2015-ci il tarixli 1595040100218400 nömrəli əmrinə 1 saylı Əlavə. -Bakı: 2015, -6s

**E-mail**: tarana-abdullayeva@hotmail.com
**Redaksiyaya daxil olub:** 28.11.2024